Möhtərəm cənab Prezident,

Dünyanın əksər ölkələrinin COVİD-19 pandemiyası ilə üzləşərək sosial və iqtisadi sahədə dərin böhran keçirdiyi bir vaxtda, Sizin liderliyinizlə "Biz birlikdə güclüyük" şüarını rəhbər tutaraq həyata keçirilmiş qabaqlayıcı tədbirlər ölkəmizin bu virusun təsirlərindən minimum zərərlə çıxmasına imkan yaratmaqdadır. Virusun ölkə sərhədlərimizə yaxınlaşdığı ilk günlərdən Sizin tapşırığınızla təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, infeksiyanın ölkəmizdə yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edilməsi, qısa zaman kəsimində yeni tibb müəssisələrinin fəaliyyətə başlanması, pandemiyanın sahibkarlığa və məşğulluğa mənfi təsirlərinin azaldılması üçün dövlət dəstəyi proqramlarının hazırlanması və icra edilməsi bir tərəfdən bu pandemiyanın mənfi sosial-iqtisadi zərərlərini minimumlaşdırmış, digər tərəfdən vətəndaş-dövlət münasibətlərinin qarşılıqlı inama və möhkəm dayaqlara söykəndiyi bir daha əyani sübut etmişdir. Bu qarşılıqlı inamın nəticəsidir ki, Sizin çağırışınızla vətəndaşlarımız və sahibkarlarımız dövlət tərəfindən həyata keçirilən tədbirlərdə fəal iştirak edərək və karantin rejiminin məhdudiyyətlərinə məsuliyyətli yanaşaraq prosesi mədəni idarəetməyi bacarmış və nəticədə koronavirusla mübarizədə millət olaraq dünyada yeni bir nümunə sərgiləmişik.

Ümid edirik ki, bu çətin günlər tezliklə bitəcək və xoş günlər təkrar qayıdacaqdır. Lakin, bizim gənc dövlət olaraq Sizin rəhbərliyinizlə ortaya qoyduğumuz dövlət-vətəndaş dayanışması hər zaman qürurla xatırlanacaqdır.

Cənab Prezident, bütün bunlara görə bir gənc olaraq Sizə öz minnətdarlığımı bildirir, xalqımızın rifahı naminə sərf etdiyiniz gərgin əməyə görə Sizə dərin təşəkkürümü ifadə edirəm.

Hörmətlə,

Səftər Vəlizadə, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü,

"SR Audit Solutions" MMC-nin direktoru.

Azərbaycan Respublikası, Bakı şəhəri.

(+994 50 473 77 02)

seftervelizade@gmail.com